# Həmrəyliyi və bərabərliyi təşviq edən platforma

## *Qoşulmama Hərəkatında Azərbaycanın rolu beynəlxalq müstəvidə yüksək dəyərləndirilir*




**Dünya ölkələri arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı beynəlxalq aləmdə öz prinsiplərinə bağlılıq nümayiş etdirən mühüm təsisatdır. Hazırda dünyada BMT Baş Assambleyasından sonra ikinci ən böyük qurum olan Qoşulmama Hərəkatına Azərbaycan 11 il öncə tamhüquqlu üzv kimi qəbul olunub. Beş il sonra isə hərəkata üzv ölkələrin yekdil qərarı ilə Venesuelada keçirilmiş Zirvə görüşündə təşkilata sədrlik Azərbaycana həvalə edilib. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin quruma sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir. Həmçinin 120 ölkənin yekdil qərarı ilə 2023-cü ilin sonuna kimi Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılması ölkəmizə böyük hörmət və fəaliyyətimizin yüksək dəyərləndirilməsinin əlamətidir.**

Prezident İlham Əliyevin iştirakı ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının keçirilməsi Azərbaycan tərəfinin təşkilatın inkişafına növbəti töhfəsi kimi tarixə düşdü. İyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Bu gün zənnimcə, Qoşulmama Hərəkatının tarixində vacib bir tədbir keçirilir. Burada - Bakıda biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini yaradırıq". Həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu təşəbbüsünü dəstəklədiyinə görə Qoşulmama Hərəkatına üzv olan dövlətlərə minnətdarlığını bildirən ölkə başçısı parlament şəbəkəsinin həmrəyliyə töhfə verəcəyinə, eyni zamanda, dünyanın müxtəlif parlament təşkilatları ilə fəal münasibətlər quracağına əminliyini ifadə edib.

Qoşulmama Hərəkatının Azərbaycan üçün önəmini artıran amillərdən biri də bu təşkilatın prinsiplərinin ölkəmizin xarici siyasət prioritetləri ilə tam üst-üstə düşməsidir. Hərəkat dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirir, beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir. Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün ilk günlərindən bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə dəstəkləyib, qəbul olunmuş bütün sənədlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt 2019-cu ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının iclasında qəbul olunmuş yekun sənəddə də öz əksini tapıb. Nəticə etibarilə, dünyanın 120 dövləti, yeni planetin təqribən üçdəiki hissəsi Azərbaycanın ədalətli mövqeyinə öz dəstəyini bildirib.

Ötən ilin avqust ayında Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş yüksək səviyyəli toplantısında Azərbaycan Prezidenti İlham Əliyev videoformatda çıxışı zamanı ölkəmizin təşkilata sədrliyi dövründəki prioritetlərini açıqlamışdı. Onun çıxışı üzv dövlətlərin dövlət xadimləri tərəfindən böyük maraqla dinlənilmişdi. Onu da xüsusi qeyd etmək lazımdır ki, Hərəkat son on ildə ən qüdrətli çağını məhz Prezident İlham Əliyevin sədrliyi dönəmində keçirir. Hərəkata sədrliyi dövründə Azərbaycanın Qoşulmama Hərəkatına müfəssəl və ambisiyalı qlobal fəaliyyət planı hazırlaması, COVID-19 pandemiyasının dünyanı bürüməsi, yeni vəziyyətə Azərbaycanın cəld və adekvat reaksiyası, Azərbaycanın pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində irəli sürdüyü beynəlxalq təşəbbüslər Prezident İlham Əliyevin dövlətimizin nüfuzunun yüksəlməsi istiqamətində uğuru kimi səciyyələndirilir. Bu məsələyə toxunan dövlət başçısı: "Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişik. Zirvə Toplantısının praktiki nəticəsi olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradılmışdır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının təmin edilməsi üçün həmin məlumat bazasından istinad mənbəyi kimi istifadə edir", - deyə vurğulayıb.

Bununla yanaşı, Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının hazırkı dünyadakı proseslərdə əhəmiyyətli beynəlxalq platforma olmasının aktuallığından danışaraq, bir sıra təşəbbüslərlə çıxış edib. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin pandemiyaya qalib gəlmək üçün qlobal həmrəyliyin, birliyin möhkəmliyinə töhfə kimi qiymətləndirilən yeni modeli onun strateji əhəmiyyətinin böyüklüyünün digər ölkələrin təsdiqinə, daha dəqiq desək, etirafına səbəb oldu. Əvvəla ona görə ki, Azərbaycan bu mübarizədə qlobal çağırışlarla çıxış edən nadir ölkələrdəndir. Problemin ümumi həlli yolunda Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında Zirvə Toplantısının və 2020-ci ilin dekabr ayında möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə 150-dən artıq dövlətin dəstəyi ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının keçirilməsinin əhəmiyyəti bu kontekstdə ayrıca qeyd olunmalıdır. Ölkəmizin Qoşulmama Hərəkatı adından BMT-nin İnsan hüquqları Şurasında bütün ölkələrin peyvəndlənməyə ayrı-seçkilik qoymadan bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürməsi, həmin qətnamənin yekdilliklə qəbul olunması və ölkəmizin inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırışı həm də dövlətimizin hər zaman olduğu kimi, burada da ədalətlilik prinsipinə sədaqətinin nümayişi idi.

Azərbaycanın Qoşulmama Hərəkatına verdiyi impuls və təsisatın beynəlxalq miqyasda artan nüfuzu dünya birliyinin Azərbaycana olan etimadının göstəricisidir. Məhz bu etimad sayəsində Azərbaycanın təşkilata sədrliyinin daha bir il müddətinə uzadılması haqqında qərar qəbul olundu. Azərbaycan təşkilata sədrliyi dövründə Qoşulmama Hərəkatını qlobal siyasətin ön cərgəsinə çıxarmağa və bir çox təşəbbüslərin müəllifinə çevirməyə nail oldu.

**Mustafa KAMAL,**
**"Respublika".**